

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 50 (20.951)

*18 mart 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Martın 17-də Şirvanşahlar Sarayı Kompleksində yeni yaradılmış muzey ekspozisiyası təqdim edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni ekspozisiya ilə tanış olmuşlar.

Dövlət tarix-memarlıq qoruq-muzey statusunu almış Şirvanşahlar Sarayı Kompleksi tarixində ilk dəfə olaraq qonaqları müasir dünya standartlarına cavab verən muzey ekspozisiyası ilə qarşılayacaqdır. İçərişəhər ərazisində yerləşən çoxsaylı tarixi abidələrin qorunub saxlanılması, bərpası və təbliği sahəsində həyata keçirilən genişmiqyaslı işlər Prezident İlham Əliyevin milli mədəni irsimizə göstərdiyi daimi diqqət və qayğısı nəticəsində mümkün olmuşdur.

Dövlətimizin başçısı və xanımı kompleksin ayrı-ayrı sahələrini gəzdilər, burada yaradılan şəraitlə tanış oldular.

## Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi ilə əlaqədar konfrans



"Maarifçi, pedaqoq, şair, publisist Məhəmməd Tağı Sidqi mədrəsə təhsili almış, klassik Şərq poeziyasını və fəlsəfəsini mükəmməl öyrənmişdir. Gəncliyində ticarətlə məşğul olmuş, ailəsini dolandırmaq üçün çayxana açmışdı; bu çayxana, bir növ, ziyalıların, ədəbiyyat həvəskarlarının toplaşdığı mədəni mərkəz, qiraətxana rolunu oynayırdı. Sidqi Hüseyn Sultan Kəngərli ilə birlikdə 1892-ci ildə Ordubadda "Əxtər", 1894-cü ildə isə Naxçıvanda "Tərbiyə məktəbi" təsis etmiş, xalq müəllimi kimi şöhrət qazanmış, ədəbi-mədəni tədbirlərin və teatr tamaşalarının əsas təşkilatçılarından olmuşdur. Birmənalı şəkildə qeyd etmək olar ki, o, bütün şüurlu həyatını xalqımızın maariflənməsinə, tərəqqisinə həsr etmişdir".

Bu fikirlər AMEA Naxçıvan Bölməsində keçirilən Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinə həsr edilmiş konfransda səsləndirilmişdir. Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Məhəmməd Tağı Sidqinin maarifçilik fəaliyyətinin Naxçıvanda elmə, biliyə, maarifə olan marağın göstəricisi, tarixi mədəniyyət mərkəzi Naxçıvanda bu sahənin inkişafının yeni mərhələsinin başlanğıcı olduğunu qeyd etmişdir. Vurğulanmışdır ki, bu gün muxtar respublikada elm və təhsilin inkişafına göstərilən diqqət və qayğını, yeni-yeni məktəblərin açılmasını bu maarifçilik ənənələrinin davamı hesab etmək olar. Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin qeyd edilməsi haqqında hələ 2004-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Sərəncam imzalanmışdır. Məhz həmin sərəncam Məhəmməd Tağı Sidqinin irsinin öyrənilməsinə ciddi təkan vermişdir.

Konfransda AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayev "Məhəmməd Tağı Sidqi: həyatı və mühiti", həmin institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımov "Məhəmməd Tağı Sidqinin hekayələri", institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Məhəmməd Tağı Sidqi və M.Şahtaxtlı", Folklorşünaslıq şöbəsinin böyük elmi işçisi Əkrəm Hüseynzadə "Məhəmməd Tağı Sidqinin ədəbi düşüncələri" mövzularında elmi məruzələrlə çıxış etmişlər.

Konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

## "Naxçıvan tarixi" çoxcildliyinin növbəti cildlərinin yazılması ilə bağlı müzakirələr aparılır

AMEA Naxçıvan Bölməsində "Naxçıvan tarixi" çoxcildliyinin ikinci və üçüncü cildlərinin müəllifləri ilə növbəti görüş keçirilib. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bu cildlərin müəllifləri ilə 2013-cü ilin noyabr ayında keçirilən görüşdən ötən dövr ərzində görülmüş işlərdən danışıb. Qeyd edilib ki, kitabın ikinci cildi Naxçıvan tarixinin XVIII əsrin ortalarından başlamış İkinci Dünya müharibəsinə qədərki dövrünü əhatə edir. 5 fəsildən ibarət olan bu cild Naxçıvan xanlığının yaranması ilə başlayır. Kitabın üçüncü cildi İkinci Dünya müharibəsindən başlamış günümüzə qədərki dövrü əhatə edəcək. İkinci cildin 2014-cü ildə, üçüncü cildin isə 2015-ci ildə nəşr olunması nəzərdə tutulub. Akademik İsmayıl Hacıyev kitabın müəllifləri üçün dövlət tərəfindən yaradılmış şəraitin yüksək səviyyədə olduğunu qeyd edərək bu cildlərin də ən mükəmməl formada yazılmalı olduğunu diqqətə çatdırıb. Sitat: "Mövzuların yazılması zamanı qarşıya çıxan çətinliklər müzakirələr zamanı müəlliflər tərəfindən qeyd edilməlidir. Müxtəlif kitabxana və arxivlərdə işləməyə zərurət yarandığı təqdirdə elmi yaradıcılıq ezamiyyətlərinə hər cür şərait yaradılacaq".

Görüşdə müxtəlif mövzularla bağlı fikir mübadiləsi aparılıb.

## Bayram süfrəmiz zəngin olacaq

### *Naxçıvan şəhərindəki Mərkəzi Bazarda bayram yarmarkası təşkil edilib*

***Xalqımızın ən dəyərli və müqəddəs bayramlarından biri olan Novruz yenə də yurdumuza qədəm qoyur. Hamı çalışır ki, bu bayramda süfrəsi bol və zəngin olsun.***

Bir neçə ildir ki, Naxçıvan şəhərində bayramqabağı təşkil olunan yarmarkalar bu əziz bayramı layiqincə keçirməyə imkan verir. Ötən şənbə günündən başlayaraq bayram yarmarkasına start verilib. Biz də həmin gün yarmarkaya üz tutduq. Burada yaradılmış şəraitlə yaxından tanış olduq. Qeyd edək ki, gördüklərimiz muxtar respublikanın iqtisadi mənzərəsini əks etdirmək baxımından insanda xoş duyğular oyadırdı. Yarmarkadakı qələbəlik isə belə deməyə əsas verirdi ki, insanlar bu tədbirdən xeyli razıdırlar. Öncə onların bir neçəsi ilə görüşüb həmsöhbət olduq. Naxçıvan şəhər sakini Hüseyn Dünyamalıyev bildirdi ki, bu tədbir bütün şəhər əhalisinin ürəyincədir. Bayram üçün almaq istədiyimiz məhsulların hamısına burada rast gəlmək olar. Qiymətlər də mağazalarda olan qiymətlərdən aşağıdır. Əsas məsələ ondadır ki, məhsulların hamısı yerli istehsaldır. Deməli, builki Novruz bayramında da süfrələrimizin bəzəyi öz məhsullarımız olacaq.

Özünü Əfqan Hüseynov kimi təqdim edən daha bir alıcı da fikirlərini bizimlə bölüşərək dedi ki, muxtar respublikamızın son illərdəki inkişafı həyatımızın bütün sahələrində özünü göstərir. Neçə illər bundan əvvəl bayrama hazırlaşarkən xeyli çətinliklərlə üzləşirdik. Aldıqlarımızın çoxu xarici ölkələrdən gətirilmiş məhsullar idi. Onların da dadı-tamı haqqında danışmağa dəyməz. Sağ olsun dövlətimizi. Artıq heç bir çətinlik çəkmədən yarmarkadan bayram üçün istədiyimizi almaq imkanı yaradılıb.

Ordubad rayonunun Dəstə kənd sakini Yusif Yusifov bu şəraiti yaradanlara minnətdarlığını bildirərək vurğuladı ki, məhsulların qiymətinin ucuzluğu həmin məhsulların yarmarkaya çıxarılmasında heç bir problemin olmaması ilə bağlıdır. Burada istehsalçılardan rüsum alınmır. Onlar elektron tərəzi ilə təmin olunurlar. Bütün bunlar alıcıların və satıcıların ürəyincədir.

Qeyd edək ki, həmin gün yarmarkaya muxtar respublikanın yaşayış məntəqələrindən müxtəlif çeşidli kənd təsərrüfatı məhsulları çıxarılmışdı. Eyni zamanda yarmarkada muxtar respublikada fəaliyyət göstərən 35 istehsal müəssisəsindən gətirilmiş məhsullar satılırdı.

Yarmarka bayram günlərinə qədər davam etdiriləcək.

## F.N.Ələkbərova III dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi Fazil Nəriman oğlu Ələkbərova III dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 mart 2014-cü il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 17 mart tarixli Sərəncamı ilə miqrasiya orqanlarında qulluqda fərqləndiklərinə və səmərəli fəaliyyət göstərdiklərinə görə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı da vardır.

**"Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə**

Nəbiyev Şahin Hidayət oğlu

## "Naxçıvanın muxtariyyət tarixi"

*Bu mövzuda Heydər Əliyev adına tam orta məktəbdə tədbir keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi müəssisədənkənar ərazi ilk təşkilatı Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə "Naxçıvanın muxtariyyət tarixi" mövzusunda tədbir keçirmişdir. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin məktəbin həyətindəki abidəsini ziyarət etmişlər. Tədbiri giriş sözü ilə məktəbin direktoru Namiq Məmmədov açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışmışdır.***



Heydər Əliyev adına tam orta məktəbin tarix müəllimi Həsən Həsənov "Naxçıvanın muxtariyyət tarixi" mövzusunda çıxış edərək bildirmişdir ki, çoxəsrlik dövlətçilik ənənələri olan Naxçıvan diyarı həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Hazırda özünün intibah dövrünü yaşayan Naxçıvanın öz muxtariyyətini qoruyub saxlaması, Azərbaycanın ayrılmaz tərkib hissəsi olmaqla böyük nailiyyətlərə imza atması heç də asan başa gəlməmişdir. XX əsr mürəkkəbliyi və dinamikliyi ilə seçilən bir dövr olmuşdur. Ötən əsr boyunca dünyanın aparıcı dövlətlərinin xarici siyasətində Qafqaz regionu və bu regionda yerləşən Azərbaycan mühüm yer tutmuşdur. Azərbaycanın bir parçası olan Naxçıvana da bəhs edilən dövrdə mühüm əhəmiyyət verilmiş, bu regionun geosiyasi və strateji mövqeyi diqqət mərkəzində olmuşdur. Hansı dövr olur-olsun, bu diyarın əzəli və əbədi sakinləri Naxçıvan regionunun Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu bütün dünyaya sübut etmişlər.

Təhsil Nazirliyinin aparıcı məsləhətçisi Ayşən Əsgərova "Ümummilli lider Heydər Əliyev və Naxçıvan təhsili", sektor müdiri Rəşad Əlizadə "Təhsilin inkişafı – 90" mövzularında çıxışlar etmişlər. Çıxışlarda qeyd olunmuşdur ki, Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanılmasında təhsilin xüsusi rolunu həmişə yüksək dəyərləndirmiş və fəaliyyətinin bütün dövrlərində bu amili daim diqqətdə saxlamışdır. İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə ümummilli lider Heydər Əliyev daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. Bu gün müstəqil Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə uğurla davam etdirilir. Təhsil sahəsində həyata keçirilən böyük tədbirlər də bu siyasətin üzvi tərkib hissəsidir. Muxtar respublikamızda bir-birinin ardınca tikilib istifadəyə verilən ən müasir maddi-texniki bazaya malik məktəblər, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn tədbirlər bu baxımdan xüsusi dəyərə malikdir.

Tədbirə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# Yeni yaşıllıqlar salınmışdır



*Xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizdə müəyyənləşdirdiyi ekoloji siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbiətin qorunmasına və zənginləşdirilməsinə, ekoloji problemlərin həllinə ciddi diqqət yetirən ölkə başçısı demişdir: “Azərbaycanda elə bir sahə yoxdur ki, sürətlə inkişaf etməsin... Bütövlükdə, ölkəmiz yeniləşir, müasirləşir, zənginləşir, bununla bərabər, təbii ki, sürətli inkişaf istər-istəməz ətraf mühitə təsir göstərə bilir. Məhz buna görə də biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş kontekstdə həyata keçirək”.*

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsidir. Ötən dövr ərzində diyarımızda ətraf mühitin mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində mühüm işlər görülmüş, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilmiş, bəzək kolları, həmişəyaşıl, həmçinin meşə ağaclarının əkilməsi, müntəzəm olaraq onlara qulluq edilməsi diqqət mərkəzində saxlanılmış, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik olan yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində aparılan işlər prioritet vəzifəyə çevrilmişdir.

Cari ildə də bu tədbirlər davam etdirilməkdədir.

Mart ayının 15-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu. Naxçıvan şəhərinin sakinləri, idarə, müəssisə və təşkilatların nümayəndələri bu tədbirdə fəallıq göstərmişlər. Həmin gün Uzunoba Su Anbarı yaxınlığındakı yeni salınmış 2 hektarlıq meyvə bağında 1500 ədəd meyvə ağacı əkilmiş, Naxçıvan-Sədərək və Naxçıvan-Batabat magistral yolunun sağ və sol hissələrindəki yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, yaşıllıqlar suvarılmışdır.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri də, əvvəlki iməciliklərdə olduğu kimi, əzmkarlıq nümayiş etdirmişlər. İməcilikdə Sərxanlı kəndi yaxınlığındakı bağda 500 ədəd meşə, Dizə-Gümüşlü yolunun kənarındakı bağda 2300, rayonun Qarxun, Tumaslı, Vərməziyar, Mahmudkənd, Zeyvə və Yuxarı Daşarx kəndlərində yol kənarlarına bərpa məqsədilə 1000 ədəd meyvə ağacı əkilmişdir.

Həmin gün Babək rayonunun ərazisində də fəallıq müşahidə edilmişdir. Rayon sakinləri Naxçıvan-Batabat magistral yolunun Vayxır kəndindən keçən hissəsində 550 ədəd çinar, Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarlarında 0,5 hektarlıq sahədə bərpa məqsədilə 350 ədəd meyvə, Şıxmahmud kəndi ərazisində 273 ədəd həmişəyaşıl ağac əkmişlər.

Bağlar diyarı Ordubadda da iməciliklər mütəşəkkilliklə keçirilmişdir. Sabirkənddəki məktəbin yaxınlığında 2 hektarlıq yeni salınmış bağda 500 ədəd, Qazi massivində bərpa məqsədilə 250 ədəd, rayonun bütün kənd mərkəzlərində isə 1200 ədəd müxtəlif növ meyvə ağacı əkilmiş, Naxçıvan-Ordubad magistral yolunun Dəstə kəndindən keçən hissəsində yol kənarlarındakı bağlarda təmizlik işləri aparılmış, ağaclar suvarılmışdır.

Culfa rayonunun Camaldın kəndində 0,3 hektarlıq sahədə 150 ədəd, Milax kəndində 0,2 hektarlıq sahədə 140 ədəd, Yaycı kəndində 0,5 hektarlıq sahədə 200 ədəd meyvə, Naxçıvan-Ordubad magistral yolunun kənarındakı 0,5 hektarlıq yeni salınmış sahədə 200 ədəd meşə, bərpa məqsədilə rayonun bütün bağlarında 300 ədəd meyvə, 500 ədəd meşə ağacı əkilmişdir.

Kəngərli Rayon Mərkəzi Xəstəxanasının həyətində yeni salınmış 1 hektarlıq bağda 400 ədəd müxtəlif meyvə ağacı, 200 ədəd həmişəyaşıl ağac, 300 ədəd gül kolu, Naxçıvan-Sədərək magistral yolunun Böyükdüz kəndindən keçən hissəsindəki bağlarda bərpa məqsədilə 100 ədəd meyvə ağacı əkilmişdir.

Şahbuzlular Daylaqlı kəndi ərazisində yeni salınmış 1,6 hektarlıq meyvə bağında 1170 ədəd, rayonun Kükü, Qızıl Qışlaq, Güney Qışlaq, Ayrınc, Ağbulaq və Gömür kəndlərində, ümumilikdə, 1,5 hektarlıq sahədə 1060 ədəd meyvə ağacı, şəhərin park və xiyabanlarında 110 ədəd həmişəyaşıl ağac, 460 ədəd gül kolu əkmişlər.

Sədərək rayonunun sakinləri Qaraağac kəndində yeni salınmış 4 hektarlıq bağda 1800 ədəd meyvə ağacı, Heydərabad qəsəbəsindəki park və xiyabanlarda 60 ədəd həmişəyaşıl ağac, 250 ədəd gül kolu əkmişlər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

*Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda ələqələndirmə və lisenziyalaşdırma şöbəsinin müdiri Ramin Qəhrəmanov çıxış etmişdir.*

# Muxtar respublikada sərnişin daşımasını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilmişdir



Bildirilmişdir ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılmış və müsbət nəticələr əldə edilmişdir. Muxtar respublika rəhbərinin bu sahəyə diqqət və qayğısının nəticəsidir ki, ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınır, rayon mərkəzlərində yeni avtovağzallar tikilib istifadəyə verilir. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının müasir tələblərə uyğun yerinə yetirilməsi zərurətini yaradır. Qeyd olunmuşdur ki, muxtar respublika ərazisində sərnişin və yük daşınmasına görə razılıq (lisenziya) qanunvericilikdə nəzərdə tutulmuş qaydada Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi tərəfindən 5 il müddətinə verilir. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən sürücülərin intizam qaydalarına necə əməl etməsini yoxlamaq məqsədilə Naxçıvan şəhərində bir sıra reydlər keçirilmiş, qanun pozuntusuna yol verən sürücülər saxlanılaraq cəzalandırılmışlar. Vergi borcunu ödəməyən, qanunsuz taksi fəaliyyəti ilə məşğul olan sürücülərə qeyri-qanuni sərnişindaşıma ilə məşğul olmamaq haqqında xəbərdarlıqlar edilmiş, tabe olmayan sürücülər Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə keçirilən reydlərdə saxlanılaraq cəzalandırılmışlar. Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi tərəfindən ötən il ərzində 137 ədədi yük, 120 ədədi taksi, 70 ədədi avtobusla sərnişindaşımа fəaliyyəti olmaqla, cəmi 327 ədəd xüsusi razılıq (lisenziya), 14 min 38 ədəd sərnişin və yük daşıyan avtonəqliyyat vasitələrinə fərqlənmə nişanı, bunun 114 ədədinə isə xüsusi fərqlənmə nişanı verilmişdir.

Nazirliyin Ümumi şöbəsinin müdiri Yasin Əliyev bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasını həyata keçirən sürücülərin intizam qaydalarına uyğun fəaliyyət göstərmələri mütəmadi olaraq nəzarətdə saxlanılır. Bu qaydalara əsasən, sərnişindaşıma hüququ müvafiq ixtisas tələblərinə və sağlamlıq vəziyyəti müvafiq normalara cavab verən fiziki şəxslərə verilir. Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq normativ-hüquqi aktlarla müəyyən olunmuş qaydada və formada verilmiş sənədlərlə təsdiq edilir. İctimai nəqliyyatda sərnişin daşınması ilə məşğul olan hər bir sürücünün idarə etdiyi avtomaşının fəaliyyət göstərməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsini təsdiq edən sənəd olmalı, sürücülük rekvizitləri qanunvericiliyin tələblərinə cavab verməlidir. Qeyd edilmişdir ki, ötən bir il ərzində sərnişin və yük daşıyan fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarət məqsədilə müxtəlif reydlər aparılmış, nəticədə, qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən 363 avtonəqliyyat vasitəsi sahibi aşkar olunmuşdur. Onların əksəriyyəti lisenziyaya cəlb edilmiş, intizama tabe olmayan 36 nəfər haqqında cəza tədbiri görülmək üçün müvafiq orqanlara məlumatlar göndərilmişdir. Sərnişindaşıma fəaliyyəti göstərən hər bir sürücü və ya sahibkar göstərilən təlimatlara uyğun hərəkət etməli, qanun pozuntularına yol verməməlidir.

Sonra sərnişindaşıma ilə məşğul olan sürücülərin sualları cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikamızda özəl bölməyə göstərilən dövlət qayğısı öz bəhrəsini vermiş, sahibkarlığın inkişafında ciddi nailiyyətlər qazanılmış, aqrar bölmədə yüzlərlə yeni istehsal müəssisəsi, kiçik fərdi təsərrüfatlar yaradılmışdır. Özəl sektorun inkişafı daxili bazarın qorunmasında, idxaldan asılılığın aradan qaldırılmasında, əhalinin tələbatının yerli istehsal hesabına dolğun ödənilməsində və ərzaq təhlükəsizliyi proqramının uğurla icra edilməsində əhəmiyyətli rola malikdir. Hazırda muxtar respublikada Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı 87 faiz təşkil edir.*

# “Naxçıvan bağları” əmtəə nişanı ilə satışa çıxarılan yerli tərəvəz məhsullarına tələbat artır

## *Böyükdüz ərazisində yeni istixana kompleksinin tikintisinə başlanılıb*

“2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni meyvə bağları salınır, istixana kompleksləri yaradılır. Tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər ötən ildə də uğurla davam etdirilmiş, Naxçıvan şəhərində yeni istixana kompleksi istifadəyə verilmişdir.

Sahibkar Elçin Bağırovun dediyinə görə, bu mühüm əhəmiyyətli sahənin inkişaf etdirilməsi üçün biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim edilmişdir. Sahibkarlığa Kömək Fondundan 1 milyon manat güzəştli kredit ayrılmışdır. 2013-cü ilin mart ayında 10 min kvadratmetr, may ayında isə 1500 kvadratmetr sahəsi olan yeni istixana kompleksi istifadəyə verilmişdir. Burada Hollandiya və Türkiyə istehsalı olan ən müasir avadanlıqlar quraşdırılmış, anbarlar, qazanxana, yeməkxana və işçilər üçün otaqlar yaradılmış, yeni kənd təsərrüfatı texnikaları alınmışdır. Ümumilikdə, yeni istixana kompleksinin tikintisinə və müasir texnoloji avadanlıqların alınmasına 1 milyon 700 min manat vəsait sərf olunmuşdur.

İstixana kompleksində avtomatik rejimdə işləyən iqlim-nəzarət sistemləri, isitmə və havalandırma avadanlıqları quraşdırılmışdır ki, bu da temperaturun sabit saxlanmasına və havanın təmizliyinə imkan verir. Burada su təchizatı da kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş avadanlıqlar vasitəsilə aparılır. Su təmizləyici qurğudan keçdikdən sonra torpağın tərkibi haqqında laborator analizin cavablarına uyğun ayrı-ayrı çənlərdə hazırlanmış gübrələr suya əlavə olunmaqla istixanaya ötürülür və suvarma damcı üsulu ilə aparılır. Bu, sudan səmərəli istifadə olunmaqla bərabər, şitillərin qidalanmasında mühüm amildir. İstixanada müasir texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır.




Hazırda istixana kompleksində zirə, tovuz və kənd sortu olan pomidor şitili əkilmişdir. Hər kolun məhsuldarlığı 4-5 kiloqram, müəssisənin illik istehsal gücü isə 200 tondur. Kompleksdə becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir, pomidor və xiyar kollarının tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır. Bu da məhsuldarlığın təbii yolla artırılmasına, mövsümi ekoloji təmiz məhsul istehsalına imkan verir.

Ekotester vasitəsilə məhsulun tərkibində olan radiasiya və nitratın (azot) müəyyən olunmuş normaya uyğunluğu yoxlanılır. Sonra isə məhsul sifarişə uyğun olaraq, nəfis tərtibatla bəzədilmiş 7 kiloqramlıq karton taralarda topdansatış bazalarında, 250-500 qramlıq və 1 kiloqramlıq plastik taralarda isə pərakəndə satış mağazalarında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış “Naxçıvan bağları” əmtəə nişanı ilə satışa çıxarılır. Hazırda gündə 500 kiloqram pomidor satışa çıxarılır ki, bu da muxtar respublikamızda bu məhsula olan tələbatın az bir hissəsini ödəyir. Artan tələbatın ödənilməsi və istixana kompleksinin fəaliyyətinin genişləndirilməsi məqsədilə 2014-cü ilin yanvar ayında biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Layihənin reallaşması üçün dövlət maliyyə dəstəyi göstərilmiş və Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 40 min kvadratmetr torpaq sahəsi ayrılmışdır. Həmin əraziyə elektrik xətti çəkilmiş, transformator yarımstansiyası qoyulmuşdur. Hazırda daimi su xətti çəkilir, ərazidə torpaq işləri görülür. Layihəyə uyğun olaraq, istixana kompleksinin ayrı-ayrı bölmələrində pomidor, xiyar, çiyələk, tərxun və digər göyərtilər, dibçək gül toxumları yetişdiriləcək. Həmçinin bu istixana kompleksində müasir avadanlıqlarla təmin edilmiş toxumluq şitilyetişdirmə bölməsi də fəaliyyət göstərəcək ki, bu da xaricdən idxal olunan şitilin qarşısını alacaq.

Tikinti-quraşdırma işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün bu sahə üzrə qabaqcıl təcrübəyə malik Türkiyənin “May Çelik” şirkəti ilə müqavilə bağlanılmış, mal-materialın alınıb gətirilməsi üçün maliyyə vəsaiti ödənilmiş və materialların idxalına başlanılmışdır. Müqaviləyə uyğun olaraq, artıq mart ayının 15-dən konstruksiya işlərinə başlanılmış və 6 ay müddətində istixana kompleksi təhvil veriləcəkdir. İstixana kompleksinin qazanxana sistemində Türkiyənin “Alarko”, suvarma sistemində İsrailin “Netafim”, gübrələmə sistemində isə İspaniyanın “Nutricontrol” şirkətlərinin istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılacaq. İstixana kompleksinin gündəlik tələbatı nəzərə alınaraq 3 ədəd hər birinin tutumu 220 ton olan yerüstü qapalı hovuz tikiləcək ki, bu da su xəttində hər hansı bir nasazlıq yaranarkən fasiləsiz su ilə təminatda mühüm rol oynayacaq. Həmçinin kompleksdə soyuducu anbar, yeməkxana, işçilər üçün otaqlar istifadəyə veriləcək, müasir kənd təsərrüfatı texnikaları alınacaqdır. İstixana kompleksinin illik istehsal gücü min ton olacaq ki, bu da qış aylarında daxili bazarın pomidora olan tələbatının ödənilməsinə imkan verəcək və bu məhsulun xaricdən idxal olunmasının qarşısını alacaq.

*Naxçıvan şəhərində fəaliyyət göstərən istixana kompleksi daxili bazarı yüksəkkeyfiyyətli tərəvəz məhsulları ilə təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynamış, 11 nəfər daimi işlə təmin olunmuşdur. İşçilər xüsusi geyim formaları və yüksək əməkhaqqı ilə təmin edilmişlər. Cari ildə istifadəyə veriləcək Böyükdüz istixana kompleksində daha 26 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulur ki, bu işçilərin də əksəriyyəti Böyükdüz kəndinin sakinləri olacaqlar.*

**Kərəm HƏSƏNOV**

*Hər şeyin yaxşısını əldə etmək, daha yaxşı yaşamaq və etibarlı gələcək qurmaq istəyi hər birimizi ən çox düşündürən məsələlərdəndir. Bu mənada nəsə yetişdirib hasilə gətirmək və onun bəhrəsini görmək üçün insan həyatda hər cür zəhmətə qatlaşmağa, minbir cəfa bahasına olsa da, öz arzularına qovuşmağa çalışır. Ancaq belə bir həqiqət də vardır ki, cəmiyyət üçün kamil insan yetişdirmək, gələcəkdə ən dəyərli kapital ola biləcək gənc nəsil formalaşdırmaq tarixən özünü təsdiq etmiş ən doğru seçimdir. Doğrudan da, hərtərəfli inkişaf etmiş gəncliyin gücünə, onun dinamikasına düzgün istiqamət verəndə sürətlə yenilənən cəmiyyətin tələbatlarına çevik uyğunlaşa bilən, yaradıcı, məhsuldar gənclik formalaşır.*

# Sağlam gənclik güclü gələcək deməkdir



Gəncliyin dinamizmi, onun yaradıcı gücü hər kəsə bəllidir. Gənclərin çevik uyğunlaşma bacarığı, onların mürəkkəb situasiyalarda belə, göstərdiyi mübariz keyfiyyət çox zaman cəmiyyətin çoxdan gözlədiyi dönüş anını reallaşdıraraq yeni inkişaf mərhələsinə qədəm qoyur. Tarixin mühüm keçid mərhələlərində taleyüklü məsələləri öz üzərinə götürmüş gənc insanların atdığı qətiyyətli addımlar illər keçəndən sonra sələflərin onlara miras qoyduğu müdrik təcrübənin davamı kimi öz bəhrələrini verir, insanları gələcəyinin öz əlində olduğuna inandırır.

***"Müstəqil Azərbaycanın gələcəyi gənclərdir"***, – deyən xalqımızın ümummilli lideri Heydər Əliyev hələ ölkəmizə rəhbərliyinin birinci dövründə azərbaycanlı gənclərin hərtərəfli formalaşdırılması, onların gələcəkdə Azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməsi üçün lazım olan hər şeyi etmişdi. O dövrdə dahi rəhbər azərbaycanlı gənclərin xaricdə təhsil almasına, onların o dövr üçün çox çətin olan hərbçi kadrlar kimi yetişməsinə, dövlət idarəetməsi, siyasət, diplomatiya sahəsində yetkinləşməsinə ciddi diqqət yetirirdi. Ölkəmiz müstəqillik qazanandan sonra isə gənclərin ictimai həyatın bütün sahələrində bilik və bacarıqlarından istifadə olunması dövlətin siyasətində mühüm yer tutmuş və bu istiqamətdə işlər uğurla davam etdirilməkdədir.

Dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Son illər gənclərimizin muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı təmin edilməkdədir. Muxtar respublikada reallaşdırılan gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramları əsasında gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənc kadrların irəli çəkilməsi, onların xidmətlərinin qiymətləndirilməsi davam etdirilməkdədir.

Qədim Naxçıvan torpağında gənclərin mənəvi-əxlaqi tərbiyəsi və onların mədəni həyatda iştirakı daim diqqət mərkəzində saxlanılır. Bu, onlara göstərilən ən böyük dövlət qayğısıdır. Bu gün muxtar respublikada müasir avadanlıqlarla təchiz edilərək gənclərin istifadəsinə verilmiş məktəblər, tədris binaları, laboratoriya, kitabxana, konsert və sərgi salonları, yaradıcılıq emalatxanaları, studiyalar onların yaradıcılıq potensialından səmərəli istifadəyə əlverişli şərait yaradır. Cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə geniş yer verilməsi, elektron kitabxanaların yaradılması, sürətli internet şəbəkəsinin tətbiqi gənclərin müasir biliklərə yiyələnmələri istiqamətində həyata keçirilən uğurlu işlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması regionumuzda gənclərə göstərilən diqqət və qayğının parlaq nümunəsidir. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu muxtar respublikada gənclərin inkişafına yönəldilmiş layihələrin və tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlamış və bir sıra tədbirlər həyata keçirmişdir.

Bu il fevralın 1-də Naxçıvan şəhərində istifadəyə verilən Gənclər Mərkəzi isə gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, intellektual inkişafı, asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir. Şəhərin ən gözəl yerlərindən birində ucaldılmış bu yaraşıqlı binada yaradılan şərait muxtar respublika gənclərinin asudə vaxtlarının səmərəli təşkili, onların yaradıcı potensialının üzə çıxarılması baxımından çox əhəmiyyətlidir. Gənclər Mərkəzində hər naxçıvanlı gəncin müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından yararlanması, dünyanın elektron kitabxanalarından istifadə etməsi və kataloqlarla tanış olması üçün şərait yaradılmışdır. Mərkəzdəki kitabxananın fondunda 1000-ə yaxın elmi və bədii ədəbiyyat mövcuddur. Buradakı kompüter zalında quraşdırılmış videokonfrans avadanlığı dünyanın istənilən yeri ilə videobağlantıların qurulması və videokonfransların keçirilməsi üçün əlverişli imkan yaradır. Mərkəzdəki linqafon kabinələri xarici dillərin müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə öyrənilməsinə imkan verir. Linqafon kabinələrində ingilis, rus və fransız dilindən hazırlıq kurslarının təşkili nəzərdə tutulur.

Burada həmçinin gənclər arasında intellektual oyunların keçirilməsi üçün intellektual oyun zalı da yaradılmışdır. Muxtar respublikada gənclərin asudə vaxtının səmərəli təşkili və intellektual qabiliyyətlərinin inkişaf etdirilməsi, istedadlarının üzə çıxarılması baxımından intellektual oyun zalı xüsusi əhəmiyyət kəsb edir. Bundan başqa, gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə bilyard və tennis zalı yaradılmış, atıcılıqla məşğul olmaq üçün tir quraşdırılmışdır.

***Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu bir sıra layihələrin həyata keçirilməsi üçün işlər görür. "Muxtariyyət ili" elan olunmuş 2014-cü ildə Gənclər Fondu tərəfindən muxtar respublikamızla bağlı bilik yarışlarının, şeir, mahnı, rəsm, hekayə müsabiqələrinin, jurnalistlər arasında müsabiqənin və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Muxtar respublikada gənclərlə bağlı reallaşdırılan layihə və proqramlar onların intellektual və yaradıcı potensialının üzə çıxarılmasına, fəallıqlarının artırılmasına xidmət edir.***

**Əli CABBAROV**

## Məhəmməd Tağı Sidqi – 160

# Maarif fədailəri

***Qədim tarixə malik Naxçıvanın XIX əsrdə yetirdiyi məşhur simalar sırasında Məhəmməd Tağı Sidqinin (1854-1903) adı ən şərəfli yerlərdən birini tutur. O, universal maarifçi, ustad pedaqoq, istedadlı şair, vətənpərvər publisist kimi səmərəli fəaliyyət göstərmiş, böyük nüfuz qazanmışdır. 1892-ci ildə Ordubadda açdığı "Əxtər" ("Ulduz") məktəbi ilə qısa müddətdə şöhrətlənən M.T. Sidqi Naxçıvana dəvət olunmuş, 1894-cü ildə burada təşkil etdiyi "Məktəbi-tərbiyə" ("Tərbiyə məktəbi") ilə maarifçilik hərəkatına ciddi töhfələr vermişdir. Bir müddət sonra rus-Azərbaycan məktəbinə çevrilən bu təhsil ocağı xalq təhsilinin inkişafında mühüm rol oynamışdır.***

Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və ictimai fikrinin görkəmli nümayəndələrindən Hüseyn Cavid, Əziz Şərif, Rza Təhmasib, Əli Səbri, Ələkbər Qərib və bir çox başqaları ilk təhsillərini həmin məktəbdə almışlar. Bununla yanaşı, M.T.Sidqinin Naxçıvanda açdığı "Qız məktəbi" də maarifçilik hərəkatına böyük xidmət idi. Görkəmli pedaqoqun hazırladığı müxtəlif səpgili tədris vəsaitləri də onun maarifçilik fəaliyyətinin üzvi tərkib hissəsidir. Tanınmış ziyalının qələmə aldığı didaktik hekayələr, maarifçi şeirlər, eləcə də lirik poeziya nümunələri və ədəbiyyatşünaslıq materialları da onun çoxşaxəli fəaliyyətində özünəməxsus yer tutur. M.T. Sidqi mətbuatla yaxından əlaqə saxlamış, Bakı, Tiflis, Bağçasaray, Kəlkütta və sair şəhərlərdə nəşr olunan bir sıra qəzetlərdə aktual mövzulu məqalələr dərc etdirmişdir. Beləcə, bu böyük maarifçi ardıcıl, məqsədyönlü, qaynar fəaliyyəti ilə əsl xalq adamı, mötəbər ziyalı kimi şöhrətlənmişdir.

Qeyd etdiyimiz kimi, M.T.Sidqinin bir xidməti də müəllim kimi yeni nəsillərin formalaşması işinə böyük töhfələr verməsidir. Onun vaxtilə dərs dediyi şagirdlər sırasından yetişən tanınmış simalardan biri elə öz oğlu, maarifçi, pedaqoq, publisist, tərcüməçi Məmmədəli Sidqi Səfərovdur (1888-1956). Bəzi kitab və məqalələrdəki qısa dəyərləndirmələri çıxmaq şərti ilə deməliyik ki, ədibin həyat və yaradıcılığı indiyədək sistemli şəkildə araşdırılmamış, əsərləri toplanılıb nəşr olunmamışdır. Faktlar göstərir ki, Məmmədəli Sidqi, sözün əsl mənasında, atasının şərəfli yolu ilə getmiş, onun çoxşaxəli maarifçilik ideyalarını ləyaqətlə davam və inkişaf etdirmişdir. Sanki M.T.Sidqi oğlunun istedadını, gələcəyini öncədən duymuş, ona xitabən yazdığı "Gözümün nuru, ey Məhəmmədəli!" misrası ilə başlayan şerində övladına nəsihətlərini, təhsil üçün söylə çalışması barədə arzularını poetik şəkildə belə ümumiləşdirmişdir:

*Ey mənim sərvi-bağü bustanım,*
*Ey mənim bülbüli-gülüstanım.*
*Sən mənim cismim içrə canımsan,*
*Sən mənim tifli-xoşbəyanımsan.*
*Nə qədər ki əlində var fürsət,*
*Dərsinə eylə hər zaman diqqət.*
*Yetişibdir zamani-elmi-ədəb,*
*Mənzilin eylə guşeyi-məktəb.*

Məmmədəli "Tərbiyə məktəbi"nin digər məzunları ilə bərabər, böyük maarifçinin etimadını doğrultmuş, vətənpərvər ziyalı kimi formalaşmışdır. O, ilk təhsilini 1894-1900-cü illərdə məhz "Tərbiyə məktəbi"ndə almış, sonra isə Naxçıvan şəhər məktəbində oxumuşdur. İmtahan verərək müəllimlik hüququ qazanan gənc Məmmədəli 1906-cı ildən etibarən Naxçıvan şəhərində, Şahtaxtı, Qıvraq və Qahab kəndlərində müəllimlik etmişdir. Arxiv materiallarından öyrənirik ki, o, 1906-1907-ci illərdə Naxçıvanda müəllim işlədiyi zamanlarda azadlıq hərəkatında da iştirak etmiş, bəzi həmfikirləri ilə birlikdə gizli yolla siyasi məzmunlu intibahnamələr hazırlayıb şəhərdə yaymışdır. Hökumət dairələri bununla əlaqədar axtarış aparıb müəyyən tədbirlər görmüş, o cümlədən gənc Məmmədəlini Naxçıvan şəhərindən uzaqlaşdıraraq kənd məktəblərində çalışmağa göndərmişlər. Bundan xəbər tutan Mirzə Cəlil "Molla Nəsrəddin"in 7 dekabr 1908-ci il tarixli sayında etiraz ruhlu məlumat dərc etdirmişdi. Lakin çar məmurlarının şübhələri ara verməmiş, nəticədə, 1 iyun 1910-cu il tarixdə Məmmədəli Sidqi müəllimlikdən azad olunmuşdur. Belə bir vaxtda Cəlil Məmmədquluzadə 9 iyun 1910-cu il tarixli məktubla Məmmədəlini Tiflisə "Molla Nəsrəddin" jurnalının idarəsində işləməyə dəvət etmişdir. Bu dəvət təsadüfi deyildi. Belə ki, Məmmədəli Sidqi Mirzə Cəlilin böyük hörmət bəslədiyi Məhəmməd Tağı müəllimin oğlu olmaqla yanaşı, mədəni mühitdə də artıq tanınmışdı. Bakıda çıxan "Həyat", "İrşad" kimi qəzetlərdə, eləcə də Tiflisdə nəşr olunan "Molla Nəsrəddin" jurnalında onun bir sıra məqalə və felyetonları oxuculara çatdırılmışdı. Mirzə Cəlil onun bu sahədəki səriştəsini də nəzərə almışdı. Beləliklə, dəvətdən iki ay sonra jurnalın redaksiyasında çalışmağa başlayan gənc maarifçi qısa müddətdə müvafiq işlərin mahiyyətinə yiyələnmiş, həmin ilin noyabr ayından 1911-ci ilin martınadək "Molla Nəsrəddin"in redaktor köməkçisi kimi səmərəli fəaliyyət göstərmişdir. Bu müddətdə o, jurnalın nəşri ilə əlaqədar ən müxtəlif vəzifələrin öhdəsindən layiqincə gəlmiş, Mirzə Cəlilin rəğbətini qazanmışdır.

Bundan sonra Məmmədəli Sidqinin 1911-1912-ci illərdə Aşqabadda müəllimlik etməsi, eyni zamanda publisistik fəaliyyətinə də ara verməməsi barədə arxivlərdə müvafiq məlumatlarla rastlaşırıq. Sonra Bakıya dönən M.T.Sidqi mətbuat aləmi ilə daha sıx bağlanmış, sosial, siyasi, ədəbi, mədəni problemlərə həsr olunan çoxsaylı məqalə və felyetonlar yazaraq müxtəlif qəzet və jurnallarda dərc etdirmişdir. Ümumiyyətlə, 1920-ci ilə qədərki dövrdə Məmmədəli Sidqi "Həyat", "İrşad", "Molla Nəsrəddin", "İqbal", "Yeni irşad", "Bəsirət", "Yeni iqbal", "Təzə xəbər", "Sədayi-həqq", Sədayi-vətən", "Həqiqət", "Babayi-Əmir", "Azərbaycan", "Şeypur", "Zənbur" kimi mətbuat orqanlarında müxtəlif imzalarla (Zadə, Rizə, Əfi, Bekar, Qəmiş, Bir naxoş, Şeypur, Kabla Kövsər, Kəzbi, Kərtənkələ və sair) məqalə və felyetonlarını oxuculara çatdırmışdır. M.Sidqi həmçinin atasının "Kəblə Nəsir", "Heykəli-insana bir nəzər", "Puşkin" kimi əsərlərini də bu illərdə Bakıda nəşr etdirmişdir.

1918-1919-cu illərdə Bakıda çıxan satirik "Şeypur" jurnalının redaktoru kimi də M.Sidqinin fəaliyyəti təqdirəlayiqdir. Cəmi 14 sayı çıxmış bu jurnalda onun dərc etdirdiyi məqalə və felyetonlar özünün dərin milli mündəricəsi, sosial-siyasi proseslərə həssas, obyektiv münasibəti ilə diqqəti çəkir. Xüsusən bədnam ermənilərin fitnəkar əməlləri, 1918-ci ilin martında və sonrakı aylarda soydaşlarımıza qarşı törətdikləri qanlı qırğınlar, Azərbaycanı işğal etmək istəyən bolşeviklərin məkrli siyasəti, müxtəlif xarici qüvvələrin erməniləri dəstəkləməsi, azərbaycanlılara münasibətdə ayrı-seçkilik etməsi barədə Məmmədəli Sidqinin yazdıqları qəlbi Vətən və xalq sevgisi ilə döyünən qeyrətli ziyalının yanıqlı harayıdır. "Şeypur" jurnalının müxtəlif saylarında verilmiş "Altı ay", "Əsgərlik", "Qrammofon", "Tiflis duması", "Barışırlar", "Nə istəyirlər?", "Nə var, nə yox?", "Bu gün", "Siyasət", "Gürcü-erməni vuruşması" kimi məqalə və felyetonları bu baxımdan səciyyəvidir. Elə burada xatırlatmaq yerinə düşər ki, M.Sidqi həmin dövrdə nankor ermənilərin Naxçıvana basqınları, axıtdıqları günahsız qanlar, soydaşlarımızın onlara qarşı mətanətlə mübarizə aparması barədə bir sıra şeirlər də yazmışdır. Bütün bunlar onun həssas vətəndaş mövqeyindən soraq verir. Ümumiyyətlə, tanınmış publisistin əksər əsərləri dərin milli mündəricəsi, vətənpərvər qayəsi ilə səciyyələnir.

Sovet dövründə M.Sidqi bir müddət respublika Maarif Komissarlığında, teatrda çalışmış, mətbuat sahəsində fəaliyyətini davam etdirmiş, o cümlədən "Kommunist" qəzeti redaksiyasında da işləmişdir. Həmin qəzetdə, eləcə də "Vətən yolunda", "Sumqayıt işçisi" və digər mətbuat orqanlarında onun "MƏƏS", "İşçi MƏƏS", "M.Əli", "M.S." kimi imzalarla çoxsaylı məqalələri, tərcümələri dərc olunmuşdur. Onun şeir, məqalə və felyetonları ötən əsrin birinci yarısındakı Azərbaycan cəmiyyətinin sosial-siyasi və mədəni gerçəkliklərinin ifadəsi olduğu kimi, atası M.T.Sidqi, eləcə də "Molla Nəsrəddin" jurnalı haqqındakı xatirələri də o dövrün ədəbi-mədəni mühitini öyrənmək üçün qiymətli mənbədir.

***Atası Məhəmməd Tağı Sidqinin maarifçilik yolunu şərəflə davam etdirən Məmmədəli Sidqinin çoxşaxəli pedaqoji, ədəbi-publisistik fəaliyyətinin hərtərəfli şəkildə tədqiqinə, zəngin yaradıcılıq irsinin nəşr olunub müasir ictimaiyyətə çatdırılmasına ehtiyac var.***

**Hüseyn HƏŞİMLİ**
*filologiya elmləri doktoru, Əməkdar elm xadimi*

*Tarixi olduqca qədimlərə gedib çıxan Novruz bayramı gecə ilə gündüzün bərabərləşməsi, xeyir qüvvələrin şər qüvvələr üzərində qələbə çalması və əkinçilik həyatının başlanğıcını özündə təcəssüm etdirən bir bayramdır. Novruzun təbiət bayramı olduğunu bildirən mütəxəssislər onun türk xalqlarının yaddaşına bahar bayramı kimi həkk olunduğunu qeyd edirlər.*

# Müqəddəsləşən, vətənləşən ünsürlə bağlı yaranan çərşənbə - torpaq çərşənbəsi

*Ulu əcdadlarımız bu çərşənbəni ən şən, ən şux mərasim və ayinlərlə qarşılamışlar*



Qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycan xalqının əski çağlardan ərməğan gətirdiyi mənəvi dəyərlərdən sayılan Novruz bayramı ərəfəsindəki çərşənbələrin sonuncusu torpaq çərşənbəsidir. Bu çərşənbə xalq arasında "Yer çərşənbəsi" adı ilə də tanınır. Məlum olduğu kimi, torpaq çərşənbəsində torpaq oyanır. Torpaqda su, istilik normallaşır; bununla da, o artıq əkinə hazırdır, torpağa toxum səpmək olar. Torpağın oyanmasını ulu əcdadlarımız ən şən, şux mərasimlər, nəğmələr, ayinlərlə qeyd etmişlər. Xalq arasında belə bir inam olmuşdur ki, dörd müqəddəs ünsürdən ikisinin oyanması ilə torpaq daha böyük güc alır, ərzin donunu dəyişir, adamlar yoxsulluq və qıtlıqdan, çətinlik və məhrumiyyətlərdən qurtulmaq üçün özündə daha böyük qüvvə tapır. Elə bu inamla bağlı xalq arasında yayılmış əski bir mifoloji təsəvvürə görə, adamların məhrumiyyət və qıtlıqdan əziyyət çəkdikləri bir gündə sel (su) və atəş (od) torpaq xatının yeraltı məbədinə qonaq gəlirlər. Məbəddə yatmış torpaq xatını oyadıb adamların aclıq və qıtlıq çəkdiklərini ona söyləyirlər. Torpaq xatın: "Adamları fəlakətə salan özü fəlakətə düşər", – deyib yerindən qalxır. Sel, atəş və torpaq xatın əl-ələ verib oxuya-oxuya işıqlı dünyaya çıxırlar. Deyirlər, həmin gün ilin ən əziz günü olan torpaq çərşənbəsi günü imiş.

İlaxır çərşənbələrin mərasim, ayin, etiqad, oyun və şənliklərlə ən zəngini sayılan torpaq çərşənbəsi kütləvi xalq şənlikləri ilə qeyd olunur. Bu çərşənbənin şənlik və mərasimləri özünəməxsusluğu ilə seçilir. Şənliklər sübh tezdən su üzərinə getmə adəti ilə başlayır. Adamlar su üstünə çıxır, su üstündən atlanır, dərdini, kədərini, arzu və istəyini suya danışır, beləliklə, kədərinin orada qaldığına, arzularının çin olacağına inanırlar... Ədalətsiz iş görənləri, ədavət salanları, nahaq qan tökənləri suya tapşırma xalq arasında geniş yayılmışdır. Torpaq çərşənbəsinin axşam şənlikləri daha əhatəli keçirilərdi. Üzərlik yandırılar, tonqallar alovlanar, bacalardan torbalar sallanar, qurşaq atılar, qulaq falına çıxılardı. Torpaq çərşənbəsi günü yeni əkiləcək torpaq sahələrində, əkin yerlərində kütləvi xalq şənlikləri keçirilər, bir çox hallarda isə sayaçıların, cütçülərin nəğmələri, mərasimləri yada düşərdi. Torpaq əzizlənər, adamlar torpağı təmizləməyə çıxar, bostan və dirriklərdə də müxtəlif ayinlər icra edilərdi.

Torpaq çərşənbəsi elin əziz günlərindən biridir. Xalq arasında onunla bağlı çoxlu bədii nümunələr yaşamaqdadır. Ulularımız torpağın qayğısını, nazını çəkənləri, onun qarşısında əyilənləri həmişə sevib-əzizləyiblər. Torpaq yaradıcı, yaşadıcı, törədici olduğundan ona "Ana torpaq" deyə ehtiram göstərilib. Torpaq sevilməyə başlanandan, tər töküb gülüstan yaradılandan müqəddəsləşib, vətənləşib. Torpağa göstərilən sədaqət, məhəbbət anaya, Vətənə məhəbbətlə bərabər tutulub eyniləşdirilib.

Torpağın bol, tükənməz nemətlərinə sahib olduğuna görə insanın güclü və qüdrətli olduğuna arxayın olan babalarımız and içəndə "Torpaq haqqı!", "Yer haqqı!", alqış söyləyəndə "Torpağın həmişə gül bitirsin!", "Torpağın həmişə bar yetirsin!", "Torpağın bərəkətli olsun!", "Torpağın yada qismət olmasın!", qarğış edəndə "Torpağını torba ilə daşısınlar", "Torpağında ağac bitməsin", "Üstünü örtməyə torpaq tapılmasın", "Torpaq üzünə həsrət qalasan", "Torpaq başına tökülsün", – deyiblər. "Torpağa əyilən namərdə əyilməz", "Torpaqla əlləşən xoşbəxtliklə rastlaşar", "Torpağa var versən, o da sənə bar verər", " Torpağın sirrini əli torpaqda olanlar bilər", "Torpağa göz ağardanda üz ağardar", "Torpağa xor baxsan, o da sənə kor baxar", "Torpağın qarası üz ağardar" və sair kimi xalq tərəfindən yaradılan folklor nümunələri müqəddəsləşən, vətənləşən torpağa olan sədaqət və məhəbbətdən qaynaqlanmışdır.

**Nizami ƏZİZƏLİYEV**

# "Araz-Naxçıvan" – "Xəzər Lənkəran" görüşü idman mübarizəsi şəraitində keçmişdir

"Araz-Naxçıvan" Peşəkar Futbol Komandası I divizionda öz parlaq oyunu ilə futbol həvəskarlarının rəğbətini qazanmışdır. Həmçinin komanda Azərbaycan kuboku uğrunda keçirilən görüşlərdə də əzmkar mübarizə aparır.

Martın 12-də Naxçıvan Muxtar Respublikası Mərkəzi Stadionunda "Araz-Naxçıvan" və "Xəzər Lənkəran" komandaları arasında Azərbaycan kubokunun 1/4 final mərhələsinin ilk oyunu keçirilmişdir. Ölkənin ən güclü komandalarından biri olan "Xəzər Lənkəran" və I divizionda turnir cədvəlinə başçılıq edən "Araz-Naxçıvan", sözün əsl mənasında, azarkeşlərə futbol bayramı yaşatmışlar. Gərgin idman mübarizəsi şəraitində keçən görüş 1:1 hesabı ilə başa çatmışdır.

Görüş ölkə mətbuatında geniş işıqlandırılmış, qarşılaşma əsl dostluq və idman mübarizəsi kimi dəyərləndirilmişdir. Həmçinin görüş komanda rəsmiləri, baş məşqçilər, idman şərhçiləri və futbolçular tərəfindən də yüksək qiymətləndirilmişdir. Müxtəlif informasiya agentliklərində dərc olunan həmin mətbuat açıqlamalarını olduğu kimi təqdim edirik.

"Xəzər Lənkəran" futbol komandasının prezidenti Mais Mənsimov: "Kubokda növbəti mərhələyə çıxmaq şansımız 50 faizdir. "Araz-Naxçıvan"la Naxçıvanda dolu tribunalar qarşısında oynamaq asan deyil. Komandamız rəqibi dəyərləndirdiyi üçün Naxçıvana bir neçə gün öncədən getmişdi. Çox təəssüf ki, mən həmin oyunu izləyə bilmədim. Amma Mustafa Dənizli və bütün komanda üzvləri onlara yaradılan şəraitdən, diqqətdən razı qalmışdılar. Naxçıvanlıların qonaqpərvərliyinin cavabını, inşallah, Lənkəranda verməyə çalışacağıq. Meydanda isə güclü olan qalib gəlsin".

"Xəzər Lənkəran" komandasının baş məşqçisi Mustafa Dənizli: "Kubok oyunlarında hədəf fərqli olur. Səfərdə oynadığımız ilk oyuna görə nəticə yaxşı sayıla bilər. Rəqibimiz I divizionun ən güclü komandasıdır, bir çox Premyer-Liqa klubları ilə eyni gücdədir. Yaxşı oyun oldu, qol epizodları oldu. İlk hissədə 11 metrlik cərimə zərbəsindən istifadə edə bilsəydik, başqa cür ola bilərdi. Hər halda, yarımfinala vəsiqəni ev oyununda həll edəcəyimizə inanıram. Kubokda yolumuzu davam etdirəcəyik. Sürpriz nəticə olmaması üçün cavab oyununda var gücümüzlə oynayacağıq".

"Xəzər Lənkəran"ın futbolçusu Alvaro Silva: "Favorit olduğumuzu oyunda təsdiqlədik. "Xəzər Lənkəran" duelin taleyini ilk görüşdə həll edə bilərdi. Oyun zamanı üstünlük bizim tərəfimizdə oldu. Son dəqiqələrdə buraxdığımız qol matçın heç-heçə başa çatması ilə nəticələndi... Lənkəranda biz hər bir fürsəti dəyərləndirməyə çalışacağıq. Fikrimiz Azərbaycan kubokunda mümkün qədər irəli getməkdir. Buna görə "Araz-Naxçıvan"la görüşdə yalnız qələbə barədə düşünəcəyik... "Araz-Naxçıvan" I divizionun güclü klublarından biridir. "Xəzər Lənkəran" isə Premyer-Liqanın güclü komandaları sırasındadır. Rəqib futbolçularında gördüyüm əzmkarlıq məni sevindirdi. Onlar sona qədər mübarizə apardı".

İdman şərhçisi Samir Musayev: "Bəzi klublar var ki, iki yoldan birini seçir. "Xəzər Lənkəran" da belə klublardandır. Onlar sırf kuboku qazanmaq üçün bütün gücünü ortaya qoyacaq. İrəli gedib deyə bilərəm ki, cütün favoriti də "Xəzər Lənkəran"dır. Təbii ki, futbolda hər şey olur. Amma "Araz-Naxçıvan"ın "Xəzər Lənkəran" qarşısında şansı çox aşağıdır. Onu da demək lazımdır ki, "Araz-Naxçıvan"ın bu yerə gəlib çıxması böyük işdir. Cavan komandadır, gələcəkdə həm kubok, həm də çempionluq üçün mübarizə apara bilər".

"Araz-Naxçıvan" komandasının baş məşqçisi Əsgər Abdullayev: "Rəqibin güclü olduğunu bilirdik. Premyer-Liqada öz sözünü demiş köklü komandadır. Səkkiz ay yarımlıq komanda ilə müqavimət göstərməyə çalışdıq. Qalib gəlmək istəyirdik, amma alınmadı. Lənkərandakı oyun da asan olmayacaq. Rəqib çox güclüdür. Şansımızı dəyərləndirməyə çalışacağıq".

Qeyd edək ki, növbəti qarşılaşma martın 19-da Lənkəran şəhərində keçiriləcək və hər iki oyunda daha yaxşı nəticə göstərən komanda turu keçəcəkdir. Bu görüşün də dostluq şəraitində keçəcəyinə inanır və komandalara uğurlar arzulayırıq.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Cari mövsümdə ikinci "sülh"

*Futbol üzrə Azərbaycan I divizionunun 21-ci turu "Araz-Naxçıvan" futbol komandası üçün böyük əhəmiyyət kəsb edirdi. Çünki bu görüşdən üç gün öncə doğma arenada Azərbaycan kubokunun 1/4 final mərhələsində "Xəzər Lənkəran"la çətin oyuna çıxan komandamız Bakıya bir qədər yorğun yollanmışdı. Həmçinin kubok uğrunda yarışda əlverişli imkan əldə edən muxtar respublika təmsilçisi, sadəcə, bu görüşü düşünürdü.*

### *Lənkərana hazırlıq*

"Araz-Naxçıvan" futbol komandasının baş məşqçisi Əsgər Abdullayev Lənkəran səfərini düşündüyündən bir çox təcrübəli futbolçunu ehtiyatda saxlamışdı. Bəxtiyar Soltanov, Azər Məmmədov, Ruslan Zamanov, İrfan Hüseynov kimi futbolçuları skamyada əyləşdirən baş məşqçi əvəzində hücumun cinahlarını Elmin Çobanov və Əziz Hüseynova həvalə etmişdi. Sivri ucda isə Fərid Quliyev yeganə qol ümidi kimi meydana çıxmışdı. Eşqin Quliyevin "dirijorluq" etdiyi yarımmüdafiə xəttində isə Elgiz Kərimli və Tərlan Xəlilov qərar tutmuşdular. Müdafiənin cinahları isə Əlimirzə Daşzərini və Cavid Həsənovun ixtiyarına verilmişdi. Ə.Abdullayev digər futbolçuları ehtiyatda saxlamaqla kubok oyununa nə dərəcədə böyük əhəmiyyət verdiyini bir daha göstərdi.

### *Küləkli hava, vurulan ikı qol*

Havanın xeyli küləkli və stadionun pis vəziyyətdə olması hər iki komanda futbolçularının yaxşı mübarizə aparmasına, əsl mənada, mane olurdu. Etiraf edək ki, oyun meydan sahiblərinin diktəsi ilə başladı. "Araz-Naxçıvan" kəşfiyyat xarakterli oyuna üstünlük versə də, "Şuşa" tez bir zamanda hesabı açmaq naminə irəli atıldı. Düzdür, onlar ilk hissə ərzində 2-3 dəfə buna nail ola bilərdilər. Lakin son anda qapıçımız və müdafiəçilərimizin sayıq oyunu buna imkan vermədi. Birinci hissənin son 5 dəqiqəsində isə muxtar respublika təmsilçisi iki qol imkanını boşa verdi. Əvvəlcə Fərid Quliyev ona ötürülən topu yaxşı ram edə bilmədi və qapı önünə gecikdi. Az sonra isə Əlimirzə Daşzərini sol cinahdan mükəmməl reyd edərək bir müdafiəçini geridə qoydu. Onun aldadıcı fəndlə cərimə meydançasına ötürdüyü topa hamıdan tez yetişən Əziz Hüseynov topu zərbə ilə qapıya yönəltdi. Hamı bu topun qapıdan keçəcəyini gözləyərkən son anda müdafiəçilər topu qapı xəttindən uzaqlaşdıra bildilər.

İkinci hissə isə bizim üçün o qədər də yaxşı başlamadı. Rəqibin ilk hücumu qolla nəticələndi. Belə ki, sağ cinahda müdafiəçilərimizin etdiyi səhvdən sonra topa ayaq qoyan Əhməd Ticanı meydan sahiblərini hesabda önə keçirdi. Bu qoldan sonra hücumların kəsərini artıran muxtar respublika təmsilçisi əvvəlcə heyətdə dəyişiklikləri ilə yadda qaldı. Belə ki, Bəxtiyar Soltanov, İrfan Hüseynov, Ruslan Zamanov, Tural Hümbətov və Elgün Abbaslının meydana daxil olması oyunun gedişatını dəyişdi. Əvvəlcə Elgün Abbaslı, təqribən, 3 metrlik məsafədən qapını dəqiq nişan ala bilmədi. Az sonra isə Tərlan Xəlilovun zərbəsini müdafiəçilər uzaqlaşdırdılar. Lakin komandamız istəyinə matçın 72-ci dəqiqəsində çatdı. Belə ki, sol cinahdan edilən asmadan sonra cərimə meydançasında qarışıqlıq yarandı. Bundan istifadə edən Əlimirzə Daşzərini "status-kvo"nu bərpa etdi – 1:1. Qolun vurulmasının ardınca qırmızı-ağlar bir neçə epizodda rəqib qapısı ağzında təhlükə yaratmaq istəsələr də, yenidən fərqlənməyə müvafiq ola bilmədilər. Bununla, "Araz-Naxçıvan" çempionatda xal itkisi ilə üzləşdi. Lakin ən yaxın izləyicisi "Qaradağ-Lökbatan"ın məğlub olması komandamızı onlardan bir qədər uzaqlaşdırdı. Hazırda "Araz-Naxçıvan" 56 xalla turnir cədvəlindəki liderliyini davam etdirir.

**Ceyhun MƏMMƏDOV**

# Məktəblilərin fənn olimpiadalarının respublika mərhələsi

*İstedadlı uşaq və gənclərin aşkara çıxarılmasında, onların həvəsləndirilməsində, təlimdə sağlam rəqabətin yaradılmasında fənn olimpiadaları müstəsna rol oynayır. Mart ayının 17-də Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə muxtar respublikamızın ümumtəhsil məktəblərinin şagirdləri arasında məktəblilərin fənn olimpiadalarının respublika mərhələsi keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, IX-XI sinif şagirdləri arasında keçirilən olimpiada saat $10^{00}$-da başlayaraq 3 saat davam etmişdir. Olimpiadada "Azərbaycan dili və ədəbiyyat", "Azərbaycan tarixi", "riyaziyyat", "fizika", "kimya", "biologiya", "informatika" fənləri üzrə 157 şagird bilik və bacarığını sınamışdır.



Qeyd edək ki, yazılar Azərbaycan Respublikası Təhsil Nazirliyində yoxlanılacaq və ballar əsasında yerlər müəyyənləşdiriləcəkdir.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 268